# AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNİN METODİKASINDA MÜASİR YANAŞMALAR VƏ TƏLİMİN EFFEKTİV TƏŞKİLİ

***Aynur Zahir qızı Bədəlova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
*https://orcid.org/my-orcid?orcid=0009-0002-9288-6218*

***Xülasə.*** *Məqalədə Azərbaycan dili dərslərinin metodikasının əsas mahiyyəti, müasir təlim yanaşmaları və onların tətbiq yolları təhlil olunur. Xüsusilə fəal təlim metodlarının, problemyönümlü yanaşmanın və informasiya-kommunikasiya texnologiyalarının dərs prosesində rolu araşdırılır. Eyni zamanda, şagirdlərin nitq inkişafının metodikanın əsas istiqaməti kimi əhəmiyyəti əsaslandırılır. Müəllimin metodik yanaşmasının tədrisin keyfiyyətinə təsiri də izah edilir. Məqalədə həmçinin vurğulanır ki, müasir təlim texnologiyalarının məqsədyönlü və sistemli tətbiqi tədris prosesinin keyfiyyətini yüksəltməklə yanaşı, şagirdlərdə davamlı öyrənmə vərdişlərinin formalaşmasında da mühüm rola malikdir.*

***Açar sözlər:*** *fəal təlim, nitq inkişafı, müasir təhsil, kurikulum*

## Giriş

Müasir dövrdə ana dilinin tədrisi dilin qrammatik izahı, qaydaların öyrədilməsi ilə məhdudlaşmır, daha geniş məna daşıyaraq şagirdin şəxsiyyət kimi formalaşmasına, onun düşünmə, fikrini izah və ifadə etmə bacarıqlarının inkişafına zəmin yaradır. Azərbaycan dili bu baxımdan həm ünsiyyət vasitəsi, həm də milli-mədəni dəyərlərin daşıyıcısı kimi çıxış edir və onun tədrisinin metodik cəhətdən düzgün təşkili xüsusi əhəmiyyət kəsb edir. Məhz bu nöqtədə müəllimin yanaşması həlledici rol oynayır, çünki eyni mövzu fərqli metodlarla təqdim edildikdə nəticə də tamamilə fərqli olur. Azərbaycan dili dərslərinin metodikası dilçiliyin bütün şöbələrinin – fonetikadan başlayaraq sintaksisə qədər sistemli şəkildə öyrədilməsini nəzərdə tutur, lakin burada əsas məsələ nəzəri biliklərin şagirdin praktik nitq fəaliyyətinə tətbiq edə bilməsidir. Yəni şagird qaydanı sadəcə bilməməli, onu danışığında və yazısında düzgün istifadə etməyi də bacarmalıdır. K.Məmmədova qeyd etdiyi kimi: *"Şübhəsiz, şagirdlərə nəzəri biliklər də verilməlidir, lakin əvvəlcə ünsiyyət üçün faydalı olan nitq bacarıqları müəyyənləşdirilməli və onu formalaşdırmağa xidmət edən biliklər sistemi seçilməlidir."*[ 1. səh. 51]

Son illərdə təhsil sistemində tətbiq olunan kurikulum islahatları Azərbaycan dili dərslərinə də öz təsirini göstərmişdir və bu təsir daha çox şagirdyönümlü yanaşmanın güclənməsi ilə müşahidə olunur. Əvvəllər dərsdə əsas aktiv tərəf müəllim idisə, indi şagirdin özünün öyrənmə prosesində iştirak etməsi, müzakirə aparması, nəticə çıxarması daha çox ön plana çəkilir. Fikrimizcə, bu yanaşma daha effektivdir, çünki şagird hazır məlumatı qəbul etdikdə deyil, onu özü tapdıqda daha yaxşı mənimsəyir. Bu baxımdan fəal təlim metodlarının tətbiqi xüsusi əhəmiyyət daşıyır. Diskussiya, debat və problemə əsaslanan təlim, qruplarla iş, beyin həmləsi kimi üsullar şagirdləri dərsə cəlb edir, onların sərbəst fikirləşməsinə şərait yaradır və ən əsası, nitq bacarıqlarını inkişaf etdirir. Düzgün qeyd edilir ki: *"İnteraktiv təlim zamanı müəllim və şagirdlər arasında qarşılıqlı informasiya mübadiləsi aparılır, problemlər birgə müzakirə edilərək həll olunur, müxtəlif situasiyalar modelləşdirilir və iştirakçılar həm öz fəaliyyətlərini, həm də yoldaşlarının davranışlarını qiymətləndirirlər."* [2. səh. 51] Müasir dərslərdə şagird



DOI: 10.5281/zenodo.19780584

fikrini əsaslandırır, müqayisə aparır və nəticə çıxarır ki, bu da onun məntiqi təfəkkürünün formalaşmasına müsbət təsir göstərir. Doğrudur ki: *"Müəllimlər yeni texnologiyalardan istifadə etməklə dərsləri daha maraqlı edən, şagirdləri, əsasən, sağlam mühakimələr irəli sürməyə, sonradan real həyata tətbiq edəcəkləri məzmunu başa düşməyə yardım edən mühüm vasitələrə çevirə bilərlər. Deməli, yeni təlim metodları təhsilin məzmununu daha yaxşı mənimsəmək və şagirdlərin müstəqil cavab vermək məqsədi ilə tələb olunan təfəkkür prosesini inkişaf etdirmək üçün çox faydalıdır."*[4.]

7-ci sinfin Azərbaycan dili dərsliyinə nəzər salaq. Bu dərslikdə təqdim olunan tapşırıqların quruluşu göstərir ki, müasir təlim yanaşmaları artıq dil tədrisinin bütün mərhələlərinə inteqrasiya olunmuşdur. Burada söz ehtiyatı, düşünmə bacarıqları, yazı fəaliyyəti və dil qaydaları bir-biri ilə əlaqəli şəkildə təqdim edilir ki, bu da şagirdin dili ümumi şəkildə mənimsəməsinə şərait yaradır. Dərslikdə yer alan "Düşün və cavab ver" tipli suallar problemyönümlü təlimin nümunəsidir. Bu suallar şagirdləri müstəqil fikir yürütməyə, vəziyyəti qiymətləndirməyə və alternativ həll yolları təklif etməyə istiqamətləndirir. Yazı mərhələsində təqdim olunan yaradıcı işlər şagirdlərin tənqidi düşünmə bacarıqlarının inkişafına xidmət edir. Müəllim bu mərhələdə şagirdləri müstəqil şəkildə şərh etməyə yönləndirməlidir. Kitabda verilmiş dil qaydaları bölməsində təqdim olunan tapşırıqlar qrammatik biliklərin mənimsənilməsinə yönəldilmişdir. Mürəkkəb sözlərin yaradılması və onların yazılış qaydalarının müəyyənləşdirilməsi ilə bağlı tapşırıqlar analitik və müqayisəli təfəkkürün inkişafına xidmət edir. [3. səh.12] Şagird verilmiş sözləri birləşdirərək yeni sözlər yaradır, sonra isə onların bitişik və ya defislə yazılmasını müəyyənləşdirir. Bu proses zamanı o, mürəkkəb sözlərin yazılış qaydalarını yadda saxlayır, eyni zamanda onu tətbiq etməyi öyrənir ki, bu da biliklərin praktik bacarığa çevrilməsinin əsas göstəricisidir.

Ümumilikdə Azərbaycan dili dərsliyində təqdim olunan materiallar müasir metodik prinsiplərə uyğun olaraq təşkil edilir və müəllim bu materiallardan istifadə edərkən daha çox yönləndirici mövqe tutur. Hesab etmək olar ki, bu cür yanaşma şagirdlərin həm dil bacarıqlarının, həm də ümumi təfəkkür səviyyəsinin inkişafına daha effektiv şəkildə xidmət edir.

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının dərs prosesinə daxil edilməsi də Azərbaycan dili dərslərinin keyfiyyətini artıran amillərdən biridir. Müxtəlif təqdimatlar, elektron resurslar, interaktiv tapşırıqlar dərsi daha maraqlı edir və şagirdlərin diqqətini uzun müddət saxlamağa kömək edir. Bununla belə, texnologiya məqsəd deyil, vasitədir və onu yerində və düzgün istifadə etmək əsas şərtdir.

Azərbaycan dili dərslərində xüsusi diqqət yetirilməli olan məsələlərdən biri də şagirdlərin nitqinin inkişafıdır. Çünki dilin əsas vəzifəsi ünsiyyətdir və şagird bu dili düzgün istifadə edə bilmirsə, deməli, tədris tam məqsədinə çatmamışdır. Bu istiqamətdə mətn üzərində iş, yaradıcı yazı tapşırıqları, ifadəli oxu, dialoq və monoloq mühüm rol oynayır. Bu tapşırıqlar əsasında şagirdin həm söz ehtiyatını artırır, həm də fikrini ardıcıl və məntiqli şəkildə ifadə etmə bacarığını formalaşdırır. Bütün bunlarla yanaşı, müəllimin metodik yanaşması xüsusi qeyd olunmalıdır. Müəllim şagirdlərə bilik verən, ona istiqamət verən, motivasiya edən və öyrənmə mühitini təşkil edən əsas şəxsdir. O, şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq diferensial yanaşma tətbiq edir və hər bir şagirdin fəallığını təmin etməyə çalışır. Bunun nəticəsində təlim prosesi daha canlı, məqsədyönlü və nəticəyönümlü xarakter daşıyır.

Beləliklə, Azərbaycan dili dərslərinin metodikası müasir təhsil tələblərinə uyğun olaraq daim yenilənməli və inkişaf etdirilməlidir. Fəal və şagirdyönümlü təlim metodlarının tətbiqi, nitq inkişafına xüsusi diqqət yetirilməsi və müəllimin metodik yanaşması bu prosesin əsas şərtlərindəndir.

**Ədəbiyyat**


1. Məmmədova, K. (2022). İbtidai siniflərin Azərbaycan dili dərslərində müasir təlim prosesinin prioritet istiqamətləri. Azərbaycan dili və ədəbiyyat tədrisi elmi-metodik jurnal, (3/273), 49–57.
2. Zeynalova, N. (2026). Azərbaycan dili dərslərində bilik və bacarıqların formalaşmasında interaktiv təlim metodlarının istifadə imkanları. Elmi Tədqiqat: Beynəlxalq Elmi Jurnal, 6(3), 49–53.
3. İsmayılov, R., Rüstəmova, A., Allehverdi, H., Məmmədova, S. Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün Azərbaycan dili fənni üzrə dərslik. Altun Kitab Nəşriyyatı.
4. Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialı. (2020). *Yeni təlim texnologiyaları: Fəal və interaktiv təlim*. https://adpuquba.edu.az/wp-content/uploads/2020/12/Yeni-T%C9%99lim-Texnologiyalari-muhazireler.pdf
5. Qəbulol.az. (2025, 2 sentyabr). Fəal təlim metodları: Əsas növləri, qiymətləndirmə. https://qebulol.az/feal-telim-metodlari/